**Azərbaycanın vergi sistemi mütərəqqi model kimi qəbul edilir**

Belarus Respublikası Dövlət Nəzarəti Komitəsinin Maliyyə Təhqiqatı Departamenti ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi arasında daimi olaraq ikitərəfli təcrübə və məlumat mübadiləsi aparılır. Müstəqil Dövlətlər Birliyi ölkələrinin Vergi (maliyyə) təhqiqat orqanları rəhbərlərinin Koordinasiya Şurasının 2011-ci il oktyabrın 26-da və 27-də Bakıda keçirilmiş XIII iclasında Azərbaycanın vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə verilmiş məlumatlar Belarus nümayəndə heyətində böyük maraq doğurmuşdur.

Bununla əlaqədar Belarus Respublikası Dövlət Nəzarəti Komitəsinin Maliyyə Təhqiqatı Departamenti Azərbaycan Respublikası Vergilər Nazirliyinə müraciət edərək, vahid ƏDV depozit hesabı, elektron vergi hesab-fakturaları layihələri və bu layihələrin ƏDV fırıldaqçılığı ilə effektiv mübarizəyə müsbət təsiri sahələrində təcrübənin öyrənilməsi məqsədilə Belarus nümayəndə heyətinin Bakı şəhərində qəbul edilməsini xahiş etmişdi.

Nazirliyin müvafiq strukturları əlaqələndirilmiş şəkildə 9-11 iyul 2012-ci il tarixlərində Belarus nümayəndə heyətini Bakı şəhərində qarşılamışdır. Nümayəndə heyətinə Departamentin Əməliyyat idarəsinin Sənədlərin yoxlanılması şöbəsinin rəisi Tatyana Jdanova və Hüquq işləri şöbəsinin rəisi Nikolay İvankov daxil idilər. 9 iyul tarixində Belarus nümayəndə heyəti ilə Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsində görüş keçirilmiş, iki qurum arasında mövcud əməkdaşlıq geniş müzakirə olunmuşdur. Görüş zamanı qonaqlara Vergilər Nazirliyinin tətbiq etdiyi layihələr barədə məlumat verilmişdir.

İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsi, Beynəlxalq münasibətlər idarəsi və Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti nümayəndələrinin iştirakı ilə təqdimat keçirilmişdir. Təqdimat zamanı qonaqlara Azərbaycanın vergi sistemində tətbiq olunan layihələr, xüsusilə AVİS sistemi, vahid ƏDV depozit hesabı, kommersiya hüquqi şəxslərin «bir pəncərə» prinsipi ilə qeydiyyatı, elektron vergi hesab-fakturaları və elektron bəyannamələrin qəbulu barədə məlumatlar verilmişdir.

Belarus nümayəndə heyəti iyulun 10-da Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində olmuşdur. Qonaqlar departamentin yeni inzibati binası ilə tanış edilmiş, onlara burada yaradılan elektron kargüzarlıq, elektron baza sistemləri və bu əsasda istintaq zamanı müraciətlərin tez zamanda əldə olunmasının mümkünlüyü nümayiş etdirilmiş, Vergilər Nazirliyinin nümayəndələri tərəfindən qonaqları maraqlandıran suallar cavablandırılmışdır.

Nümayəndə heyətinin üzvləri məlumat vermişlər ki, 2010-cu ilin dekabr ayında Belarus Respublikasının Vergilər və Yığımlar Nazirliyinin əməkdaşlarının Azərbaycanda kassa aparatlarına GPRS sisteminin tətbiqi üzrə təcrübənin öyrənilməsi üçün Bakı şəhərinə səfərindən sonra bu sistemin tətbiqinə başlamışlar. Qonaqlar səfərlər çərçivəsində öyrəndikləri təcrübənin ölkələrində tətbiq olunacağına inandıqlarını bildirmiş, gələcəkdə də azərbaycanlı həmkarları ilə əməkdaşlığın davam edəcəyinə əmin olduqlarını demişlər.

Nazirliyin Beynəlxalq münasibətlər idarəsinin rəisi səlahiyyətlərinin müvəqqəti icraçısı Mətin Kərimlinin bildirdiyinə görə, Azərbaycanın vergi sistemində həyata keçirilən islahatlar MDB üzvü olan bir sıra ölkələr tərəfindən mütərəqqi model kimi qəbul edilərək ətraflı öyrənilir: «Belarus nümayəndə heyətinin səfəri göstərdi ki, Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə xidmətin müasir texnoloji mexanizmlər əsasında qurulması, vergitutma bazasının genişləndirilməsi, habelə elektron xidmətlərin çeşidinin genişləndirilməsi sahəsində tətbiq olunan yeniliklər bir sıra MDB ölkələrində, o cümlədən Belarusda böyük maraq doğurur. Azərbaycanın vergi sistemində ardıcıl şəkildə həyata keçirilən islahatların dövrün çağırışlarına tam cavab verdiyi, müasir texnoloji yeniliklərə əsaslandığı, vergi ödəyiciləri üçün maksimum əlverişli şərait yaratmağa xidmət etdiyi etiraf olunur. Ümumilikdə, ölkəmizin vergi sistemi mütərəqqi model olaraq qəbul olunur, bir sıra ölkələr bu modeli öyrənmək və tətbiq etmək niyyətilə bizə müraciət edirlər».

Belarus Respublikasının Dövlət Nəzarəti Komitəsinin Maliyyə Təhqiqatı Departamentinin hüquq işləri şöbəsinin rəisi Nikolay İvankov səfərin Azərbaycanın mütərəqqi təcrübəsinin öyrənilməsi baxımından əhəmiyyətini xüsusi vurğulamışdır: «Azərbaycanın vergi sistemi dünyanın aparıcı vergi sistemlərinin ən modern elementlərini özündə birləşdirir. Vergi dərəcələri, bəyannamələrin və vergilərin vaxtında verilməsi dövlətin və vergi ödəyicilərinin maraqlarını optimal

səviyyədə uzlaşdırır. Azərbaycanın vergi sisteminin dövlət və biznes qurumları arasında etibarlı tərəfdaşlıq prinsipinə əsaslanması xüsusilə diqqətəlayiqdir. İkitərəfli müzakirələr zamanı ƏDV depozit hesabının və elektron vergi hesab-fakturalarının tətbiqi qaydaları, Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi, habelə ƏDV ödəyiciləri üzərində nəzarəti təmin edən xüsusi proqramın işlənməsi və tətbiqi məsələləri müzakirə olundu. Audit yoxlaması, vergi və digər iqtisadi cinayətlərin ibtidai araşdırılması və təhqiqatı ilə bağlı Azərbaycan təcrübəsini öyrəndik.

Ümumilikdə, hesab edirəm ki, Azərbaycan və Belarus respublikalarının vergi xidməti orqanları arasında əlaqələr yüksək səviyyədədir. Eyni zamanda, əldə olunmuş nailiyyətlərlə kifayətlənməməli, qarşılıqlı təcrübə, texnologiya və informasiya mübadiləsini daha da genişləndirməliyik».

Samir MUSTAFAYEV